# MasterFinish® MPT 299

## Maşın və avadanlıqlar üçün nəzərdə tutulan həlledicisiz, qoruyucu vasitə

### MATERİALIN TƏQDİMATI

**MasterFinish® MPT 299** – ətraf mühit və dəri üçün təhlükəsiz olan ağ yağ əsasında hazırlanan həlledicisiz, qoruyucu vasitədir. **MasterFinish® MPT 299** maşın və avadanlıqların metal səthləri üzərinə beton qırıntıların yapışmasını azaltmaq üçün xüsusi olaraq hazırlanmışdır.

### TƏTBİQ SAHƏLƏRİ

**MasterFinish® MPT 299**, hər növ beton mikserlər və yeni qarışdırılan betonla, məhlulla və suvaqla təmasda olan avadanlıqlarda tətbiq oluna bilər.

### ÜSTÜNLÜKLƏRİ

**MasterFinish® MPT 299**, su hopdurucu qatla örtülmüş metal səthlərə yapışır, həmçinin o, korroziyaya qarşı təsirə də malikdir. Təmizləmədən dərhal sonra **MasterFinish® MPT 299** tətbiq oluna bilər. O, su hopdurucu qatın altına yayılır və bunun nəticəsində güclü yapışqanlı qoruyucu üzlük əmələ gətirir. Bu üzlük beton və sement məhlulu qırıntıların avadanlığa yapışmasını çətinləşdirir, bunun sayəsində də təmizlənməni daha da asanlaşdırır. Hər hansı bir qırıntı topası yumşaldılır və tədricən səthdən təmizlənir.
Özünün ağ yağ tərkibinə əsasən **MasterFinish® MPT 299** təhlükəsizdir və ənənəvi mineral yağ əsaslı qəlib ayırıcı vasitələrlə müqayisədə sağlamlıq və ətraf mühitlə bağlı bir çox riskləri aradan qaldırır. Bu səbəbdən işçi qüvvəsi bu məhsuldan maksimum əminliklə istifadə edə bilər.

- Təmizləməni asanlaşdırır;
- Nəm səth üzərinə birbaşa çəkilə bilər;
- Bütün beton növləri ilə istifadə oluna bilər;
- Beton və sement məhlulu ərpini azaldır;
- Avadanlığı paslanmağa qarşı qoruyur;
- İstifadəyə hazırdır;
- Tərkibində həlledici yoxdur.

### TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| Görüntüsü | Sarımtıl, şəffaf maye |
| Xüsusi ağırlıq qüvvəsi 20˚C-də | Təxminən 0.85 q/sm³ |
| Tərkibindəki xlorid ion | ≤0.1% |
| Tətbiq temperaturu | 5˚C-dən yuxarı |
| Yapışqanlıq, 20˚C-də | 20˚C-də təxminən 17CSt |

### TƏTBİQ QAYDASI

Su ilə təmizləmədən dərhal sonra **MasterFinish® MPT 299** mikser və maşınlara tətbiq edilə bilər. Səthin qurudulması zəruri deyil. Bu, istifadəyə hazır məhsuldur və həm püskürdücü, həm də fırça və ya rulo ilə çəkilə bilər.

### SƏRFİYYAT

**MasterFinish® MPT 299** məhsulunun sərfiyyatı tətbiq metodundan asılıdır. Metal material üzərinə püskürdücü vasitəsilə 5 bar sabit təzyiqdə bərabər şəkildə tətbiq

**Məsuliyyət** Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Baş ofis** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

edildikdə, əhatə səviyyəsi 30-40 $m^2$/litr olacaqdır.

## UYĞUNLUQ

**MasterFinish® MPT 299**, yağa davamlı olmayan rezin, üzlük və ya polimerlər istisna olmaqla bütün növ səthlərdə istifadə oluna bilər.
**MasterFinish® MPT 299** digər məhsullarla qarışdırılmamalıdır.

## QABLAŞDIRMA

210 litrlik çəllək
25 litrlik bidon

## SAXLAMA

**MasterFinish® MPT 299** orijinal, kip bağlanmış bağlamada +5°C...+30°C temperaturlarda saxlanılmalıdır. Əgər məhsul istehsalçının təlimatlarına uyğun şəkildə saxlanarsa, onun saxlanma müddəti 18 aydır.

## TƏTBİQLƏ BAĞLI TƏLİMATLAR VƏ DAŞINMA

İstifadəsi zamanı hər hansı bir xüsusi qaydaya riayət edilməsi tələb olunmur. Lakin buna baxmayaraq, qoruyucu əlcək və gözlüklərdən istifadə tövsiyə olunur. Tətbiq işləri zamanı yemək, içmək və siqaret çəkmək olmaz. **MasterFinish® MPT 299** alışmayan, zəhərsiz və qıcıqlandırıcı olmayan məhsuldur və daşınması ilə bağlı xüsusi tələblər yoxdur.

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**"Master Builders Solutions Azerbaijan" MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **"Master Builders Solutions Azerbaijan" MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**"Master Builders Solutions Azerbaijan" MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Baş ofis** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az